NAXÇIVAN MUXTAR RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ


| | |
|---|---|
| **Aktın növü:** | *Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı* |
| **Qəbul edildiyi tarix:** | *22.06.2023* |
| **Qeydiyyat nömrəsi:** | *325-06/S* |
| **Adı:** | *Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin yaradılması haqqında* |
| **Rəsmi dərc edildiyi mənbə:** | *"Şərq qapısı" qəzeti № 112* |
| **Qüvvəyə minmə tarixi:** | *23.06.2023* |
| **Vahid hüquqi təsnifatı üzrə indeks kodu:** | *010.180.060* |
| **Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi:** | *32202306220325* |
| **Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix:** | *05.07.2023* |


## Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin yaradılması haqqında

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

## S Ə R Ə N C A M I

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 6-cı bəndini rəhbər tutaraq, muxtar respublikada qida təhlükəsizliyinə nəzarət sisteminin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra - Agentlik) yaradılsın.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti üç ay müddətində:

2.1. Agentliyin əsasnaməsinin layihəsini, habelə Agentliyin strukturu və işçilərinin ümumi say həddi barədə təkliflərini hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin;

2.2. Agentliyin yaradılması ilə əlaqədar:

2.2.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin;

2.2.2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının uyğunlaşdırılmasını təmin edib Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat versin;

2.3. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi ilə birlikdə Agentliyin fəaliyyətinin təşkili üçün maddi-texniki təminat məsələlərini həll etsin, digər dövlət orqanları və qurumlarının Agentliyin fəaliyyətinin həyata keçirilməsinə xidmət edə bilən dövlət əmlakının inventarizasiyasını apararaq, həmin əmlakın Agentliyə verilməsi ilə bağlı təkliflərini hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin;

2.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi Agentliyin 2023-cü il üçün saxlanılması xərclərini Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsində Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin, Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin və Dövlət Baytarlıq Xidmətinin smeta xərclərinin qənaəti hesabına təmin etsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini** **AZƏR ZEYNALOV**

Naxçıvan şəhəri, 22 iyun 2023-cü il
№ 325-06/S